

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

26 noyabr 2022-ci il
Şənbə

1933-cü ildən çıxır
№ 46 (3609)

# MÜNASİBƏTLƏR STRATEJİ XARAKTER DAŞIYIR





Noyabrın 23-də Azərbaycan Prezidenti İlham Əliyevin Serbiya Respublikasına rəsmi səfəri iki dövlət arasında münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəltməklə 25 illik diplomatik əlaqələrə yeni məzmun qatdı. Bu səfər, eyni zamanda, dövlət başçımızın Avropada qəbul edilən, sözü dinlənilən liderə çevrildiyini bütün dünyaya bir daha bariz şəkildə nümayiş etdirilməsi baxımından tarixi mahiyyət kəsb edən hadisə oldu.

Azərbaycan-Serbiya əlaqələrinin kənd təsərrüfatı, sənaye, tikinti, energetika, informasiya texnologiyaları və digər sahələrdə genişlənməsi potensialını nəzərə alsaq, iki ölkə arasında imzalanan sənədlərin buna yaxşı zəmin hazırladığını qeyd edə bilərik. Prezident İlham Əliyev də dövlət başçılarının mətbuata birgə bəyanatlarla çıxışında bir çox sahələrdə uğurla əməkdaşlıq edildiyini və bu əməkdaşlığın strateji hədəflərinin olmasına xüsusi diqqət çəkməsi perspektivin nədən ibarət olduğunu aydın göstərir.

Bu mənada dövlət başçılarının imzaladıqları "Azərbaycan Respublikası Prezidenti ilə Serbiya Respublikası Prezidenti arasında Birgə Bəyanat", "Azərbaycan Respublikası və Serbiya Respublikası arasında Strateji Tərəfdaşlıq Şurasının yaradılması haqqında Memorandum" və onun əlavəsi olan "Azərbaycan Respublikası və Serbiya Respublikası arasında Strateji Tərəfdaşlıq Şurasının Əsasnaməsi" vacib sənədlərdir.

***Yeri gəlmişkən, sənədlərin imzalanması mərasimində iştirak edən iki ölkənin nazirlikləri arasında da mühüm razılaşmalar imzalanıb. Azərbaycan Respublikasının daxili işlər naziri Vilayət Eyvazov və Serbiya Respublikasının daxili işlər naziri Bratislav Qaşiç “Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında readmissiya haqqında Saziş”ə imza atıblar.***

Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiçin ölkəmizin başçısının beynəlxalq miqyasda nüfuzunu, imicini çox yüksək qiymətləndirməsi və hər fürsətdə bunu dilə gətirməsinin bir neçə dəfə şahidi olmuşuq. Bu, əlbəttə ki, dövlət başçıları arasında səmimi dialoqun, faydalı müzakirələrin aparılmasının bir təzahürüdür və dövlətlər arasındakı siyasi əməkdaşlığa etibarlı tərəfdaşlıq keyfiyyəti qatır.

Bu dəfə də Serbiya Prezidentinin ölkəmizin başçısı haqqında səsləndirdiyi fikirlər siyasi təhlilçilərin diqqətini çəkib. Prezident Aleksandar Vuçiçin həmkarı İlham Əliyevə xitabən “bütün şəffaf protokol məsələlərinə görə bəzi sənədlər imzalanmalı olsa da, onun sözü bizim üçün yetərlidir. Çünki biz onun sözünə hər hansı imzadan daha çox inanırıq”,- söyləməsi, heç şübhəsiz, ölkə başçımızın timsalında bir siyasi liderin dünyadakı nüfuzunu, sözünün kəsərini və çəkisini göstərir.

Prezident İlham Əliyev qeyd edib ki, aramızda imzalanmış sənədlər ikitərəfli əlaqələrimizin hüquqi bazasını təşkil edir. Serbiya və Azərbaycanın bir-birini hər zaman beynəlxalq arenalarda müdafiə etdiyini, dəstəklədiklərini vurğulayan dövlətimizin başçısı ölkələrin suverenliyinin, ərazi bütövlüyünün qarşılıqlı surətdə dəstəkləndiyi və bu mövqeyin dəyişməz olaraq qalacağını bildirərək, torpaqlarımızın uzun illər işğal altında qalmasına və konfliktin hərbi yolla həll edilməsinə diqqət çəkib: “Biz görəndə ki, bütün bu səylər, o cümlədən aparılan danışıqlar səmərə vermir, güc amilindən istifadə etdik. Beynəlxalq hüquq bu imkanı bizə verirdi, BMT-nin Nizamnaməsi bu imkanı bizə verirdi, özünümüdafiə etmə haqqı bütün dövlətlərə şamil edilməlidir, o cümlədən Azərbaycana. Biz güc yolu ilə öz ərazi bütövlüyümüzü bərpa etdik, ədaləti bərpa etdik və artıq iki ildir ki, Azərbaycan xalqı azad edilmiş torpaqlarda qurub-yaradır, binaları bərpa edir, bütün o böyük ərazini – 10 min kvadratkilometrdən böyük olan ərazini yenidən qurur”.

Dövlət başçılarının həm təkbətək, həm də geniş tərkibdə görüşlərində bir çox beynəlxalq məsələlərə toxunulub, regional təhlükəsizlik məsələləri, hərbi-texniki əməkdaşlıq, beynəlxalq arenada əməkdaşlığın gələcək inkişafı kimi məsələlər ətrafında da müzakirələr aparılıb.

Serbiya Respublikasında rəsmi səfər çərçivəsində Prezident İlham Əliyev Belqraddakı Taşmaydan parkında ümummilli lider Heydər Əliyevin və görkəmli serb yazıçısı Milorad Paviçin abidələrini də ziyarət edib.

Dövlət başçımızın növbəti uğurlu diplomatik həmləsi kimi dəyərləndirə biləcəyimiz rəsmi səfəri noyabrın 23-də başa çatıb.



# DAXİLİ İŞLƏR NAZİRİ SUMQAYITDA VƏTƏNDAŞ QƏBULU VƏ SIRA BAXIŞI KEÇİRİB

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov noyabrın 24-də Sumqayıt Şəhər Polis İdarəsində növbəti vətəndaş qəbulu keçirib.

Daxili işlər naziri əvvəlcə şəhərin mərkəzindəki ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək xatirəsini böyük hörmət və ehtiramla yad edib, önünə gül dəstəsi qoyub.

*Ardı 2-ci səhifədə.*



# DAXİLİ İŞLƏR NAZİRİ SUMQAYITDA VƏTƏNDAŞ QƏBULU VƏ SIRA BAXIŞI KEÇİRİB





*Əvvəli 1-ci səhifədə.*

Sonra Şəhər Polis İdarəsinin inzibati binasında Sumqayıt, Abşeron, Qobustan, Qubadlı, Zəngilan şəhər və rayonlarından, eyni zamanda, həmin bölgədə məskunlaşmış qaçqın və məcburi köçkünlərdən qəbula gələn 208 nəfər vətəndaşı dinləyən nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb.

Ölkə rəhbərinin apardığı məqsədyönlü siyasət nəticəsində qazanılan uğurlardan məmnun olduqlarını, qalib ölkənin vətəndaşları olmaqdan qürur duyduqlarını bildirən sakinlər onların müraciətlərinə operativ yanaşılmasına, o cümlədən göstərilən diqqətə və həssas münasibətə görə dövlət başçısına minnətdar olduqlarını bildiriblər.

Həmin gün general-polkovnik V.Eyvazov adıçəkilən şəhər və rayonların polis orqanlarında vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrində xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Polis orqanlarında işləmək arzusunda olan gənclərdən qəbulun şərtlərinə uyğun 262 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onların da 47-si Vətən müharibəsi iştirakçısı olub.

***Qeyd edək ki, Vətən müharibəsi başa çatdıqdan sonra xidmətə qəbulla bağlı tələblərə uyğun 1000 nəfərə yaxın müharibə iştirakçısı və şəhid ailələrinin üzvləri daxili işlər orqanlarında işlə təmin olunublar.***

# Nazirliklər arasında anlaşma memorandumu imzalanıb



"Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi arasında sürücülük vəsiqələrinin qarşılıqlı tanınması və dəyişdirilməsi haqqında Anlaşma Memorandumu"nun imzalanması məqsədilə Azərbaycan Respublikası daxili işlər nazirinin müavini, polis general-leytenantı Oruc Zalov 15-17 noyabr tarixlərində bu ölkədə səfərdə olub.

Anlaşma Memorandumu hər iki dövlətə yaşamaq məqsədi olmadan səfər edən vətəndaşlara verilmiş sürücülük vəsiqələrinin tanınmasını, eləcə də nəzəri və praktiki imtahanlardan azad etməklə sürücülük vəsiqələrinin dəyişdirilməsini nəzərdə tutur.

Sənəd hər iki dövlətin milli qanunvericiliyinə əsasən keçirilən müvafiq prosedurların tamamlanmasından sonra qüvvəyə minəcəkdir.



# Veteran polisin şəhid oğlu

**Qubadlı Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış hərbi qulluqçu Məhəmmədəli Həsənzadənin anım mərasimi keçirilib.**

Polis polkovniki Bəhruz Cabbarov və şəxsi heyəti Şəhidlər Xiyabanına gələrək ərazi bütövlüyümüz uğrunda canlarından keçən Vətən övladlarının məzarlarını ziyarət edib, gül-çiçək dəstələri qoyublar.

Şöbə rəisi iki il bundan öncə xalqımızın birlik və əzmkarlıq nümayiş etdirərək erməni faşizmi üzərində qələbəsindən söz açıb. Qeyd olunub ki, ordumuzun dünya hərb tarixinə qızıl hərflərlə yazaraq və bu gün bir çox dövlətlər tərəfindən öyrənilən müasir döyüş taktikası hərbi gücümüzün göstəricisidir. O da vurğulanıb ki, bütün ordu birliyi ilə yanaşı, DİN Daxili Qoşunların hərbi qulluqçuları, eyni zamanda polis övladları da Qələbəmizə öz töhfələrini veriblər. Onlardan biri də polis övladı M.Həsənzadə idi.

Qeyd edək ki, "Vətən uğrunda", "Döyüşdə fərqləndiyinə görə", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilən, Zəfər günü 08.11.2020-ci ildə şəhidlik zirvəsinə ucalan Məhəmmədəli Həsənzadə Qubadlı RPŞ-nin sabiq əməkdaşı, Birinci Qarabağ müharibəsinin iştirakçısı, polis serjantı Hörmət Həsənovun oğludur.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# Nümayəndə heyətimiz Budapeştdən qayıdıb

Noyabrın 15–16 tarixlərində Macarıstanın Budapeşt şəhərində Avropa İttifaqı Hüquq-Mühafizə Təlimləri üzrə Agentliyi (CEPOL) tərəfindən "Şəbəkə Potensialının Gücləndirilməsi" üzrə 3-cü görüşü keçirilib. Tədbirdə Azərbaycan nümayəndə heyətinin tərkibində DİN-in Polis Akademiyasının Beynəlxalq əməkdaşlıq bölməsinin rəisi, polis polkovnik-leytenantı Elçin Orucov, həmçinin DİN-in Baş Mütəşəkkil Cinayətkarlığa qarşı Mübarizə İdarəsinin və Dövlət Gömrük Komitəsinin Akademiyasının əməkdaşı iştirak edib. Ümumilikdə beş ölkədən olan nümayəndələrin iştirakı ilə keçirilən görüş CEPOL-un TOPCOP layihəsi çərçivəsində baş tutub.



Görüşdə Milli və Avropa İttifaqı məkanında ən müasir təlim imkanlarından, iştirakçı ölkələrdə hüquq mühafizə orqanlarının əməkdaşları üçün həyata keçirilən treninqlər, "Təlimçilərin təlimi" konsepsiyası, TOPCOP layihəsi çərçivəsində iştirak edən əməkdaşların daha sonra əldə etdikləri bilik və bacarıqların öz həmkarlarına ötürməsi, vahid təlim cədvəlinin (ilkin olaraq insan alveri sahəsi üzrə) hazırlanaraq iştirakçı ölkələrdə tətbiq edilməsi, onlayn öyrətmə sistemləri və Avropa İttifaqı CEPOL-a aid mövcüd "Leed" sistemində onlayn təlim imkanları kimi məsələlər müzakirə edilərək 2023-cü il üçün təlim kataloquna baxış keçirilib.

Bundan əlavə, "TOPCOP" layihəsi çərçivəsində keçiriləcək regional və ölkədaxili təlim imkanları, habelə təcrübə mübadiləsi məqsədilə qarşılıqlı ölkə səfərləri və ümumilikdə CEPOL-un təşkilati və informativ dəstəyi ilə təlim imkanları geniş müzakirə edilib.

*"Polis"*

# Həyatını polis xilas etdi

Noyabrın 24-ü saat 12:00 radələrində Ucar Rayon Polis Şöbəsinə rayonunun Təzə Şilyan kəndi ərazisində yerləşən fərdi yaşayış evlərinin birində yanğın hadisəsinin baş verməsi ilə bağlı məlumat daxil olub.



Polis əməkdaşları dərhal hadisə yerinə cəlb olunublar. Bu zaman yanğının baş verdiyi evdə bir nəfər vətəndaşın köməksiz vəziyyətdə qalması müəyyən edilib və hadisə yerinə gələn Post-Patrul Xidməti Bölüyünün əməkdaşı, polis serjantı Səfər Səfərli həmin şəxsi xilas etmək üçün yanğın baş verən evə daxil olub.

Polis əməkdaşının operativ müdaxiləsi nəticəsində vətəndaşın həyatı xilas edilib və o, xidməti avtomobillə Ucar rayon mərkəzi xəstəxanasına çatdırılıb.

Evdə baş verən yanğın Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarının səyi nəticəsində söndürülüb və yaxınlıqda olan digər tikililər yanğından mühafizə olunub.

*Nizam Həmidov,*
*polis kapitanı*

# ARZULADIĞI ZİRVƏNİ FƏTH ETDİ







44 günlük Vətən müharibəsində böyük qəhrəmanlıq nümunələri göstərərək torpaqlarımızı mənfur düşmən tapdağından azad edən şəhid silahdaşlarımızın biri də DİN Daxili Qoşunlarının hərbi qulluqçusu çavuş Mirəşrəfbəyli Mirsəfa Mirbaba oğludur.

O, 1994-cü il iyulun 27-də Cəlilabad rayonunun Badamağac kəndində doğulub. Mirbaba Ağamalıyevin və Yaqut Ağamalıyevanın böyüdüb boya-başa çatdırdığı beş övladdan biri idi.

Orta təhsilinin 4-cü sinfədək olan hissəsini doğma Badamağac kəndində yerləşən ibtidai məktəbdə alıb, 5-11-ci sinifləri isə şəhid Araz Qardaşxanov adına Şatırlı kənd tam orta məktəbində oxuyub. Məktəbdə oxuduğu illərdə özünəməxsus xarakteri, sakit təbiəti, səmimi davranışı, nizam-intizamı, eləcə də yüksək əxlaqi keyfiyyətləri ilə həmyaşıdlarından fərqlənib.

Mirsəfa müddətli həqiqi hərbi xidmətini 2012-ci ilin iyul ayından 2014-cü ilin yanvar ayınadək Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində keçib. Tərxis olunduqdan sonra bir müddət mülki işdə çalışıb. Lakin hərbçi peşəsinə olan böyük marağı səbəbindən yenidən hərbi xidmətə qayıdıb. Beləliklə, 2016-cı ilin iyul ayında Daxili Qoşunların Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissəsinin xüsusi vasitələrin tətbiqi dəstəsində müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunan Mirsəfa Vətənə olan borcunu yerinə yetirməyə başlayıb. 2017-ci ilin avqust ayından etibarən bu hərbi hissənin "Pələng" şərti adını daşıyan xüsusi təyinatlı dəstəsində müxtəlif vəzifələrdə xidmət edib, 2020-ci ilin iyun ayından şəhidlik məqamına yüksəldiyi günədək isə Bakının Biləcəri qəsəbəsində yerləşən "N" saylı hərbi hissəsinin "Şahin" xüsusi təyinatlı dəstəsinin atəş təminatı qrupunun dəzgahlı qumbaraatan yarımqrupunun heyət nəfəri kimi vəzifə borcunu ləyaqətlə yerinə yetirib. Xidmət etdiyi dövrdə dəstənin və hərbi hissənin komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılıb.

Gəncədəki "N" saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin komandiri olmuş, Vətən müharibəsi iştirakçısı polkovnik-leytenant Zaur Rəhimov (hazırda Daxili Qoşunların Quba rayonunda yerləşən "N" saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsinin komandiri) vaxtilə tabeliyində xidmət etmiş çavuş M.Mirəşrəfbəylinin nümunəvi hərbi xidmətindən və iştirak etdiyi döyüşlər zamanı göstərdiyi şücaətdən qürur duyduğunu dedi. "Mirsəfa verilən tapşırıqları dəqiqliklə yerinə yetirən, şəxsi intizamı, döyüş və fiziki hazırlığı yüksək səviyyədə olan əsl vətənpərvər xüsusi təyinatlı olub. Məşğələlər zamanı fəallığı, bilik və bacarığı ilə hər zaman yoldaşlarından fərqlənib".

10 oktyabr 2020-ci ildə Xocavənd rayonunun Hadrut qəsəbəsinin müdafiəsi uğrunda gedən döyüş Mirsəfanın son döyüşü oldu. Bu barədə Vətən müharibəsi iştirakçısı çavuş Təbriz Məmmədov xatirələrini bizimlə bölüşüb: "Ömər aşırımı ətrafındakı mövqelərə hücum zamanı tərkibində Mirsəfanın da olduğu qrupumuz düşmənin mühasirəsinə düşdü. Şiddətli döyüş səhər saatlarına qədər davam etdi. Nəhayət, düşməni məğlub edərək mühasirəni yarıb, ermənilərin postunu aldıq. Bir şəhidimiz, on iki yaralımız oldu. Mirsəfa yaralı silahdaşlarımıza ilk tibbi yardımın göstərilməsində, onların döyüş meydanından çıxarılaraq təxliyyə olunmasında da fəal iştirak etdi.

Hadrut qəsəbəsi düşməndən azad olunsa da, ətrafdakı bəzi yüksəkliklərdə erməni işğalçılarının postları hələ də qalırdı. Acı məğlubiyyətlə barışmayan düşmən bu yüksəkliklərdən olduğumuz mövqeləri artilleriyadan atəşə tuturdu. Oktyabrın 10-da səhər saatlarında Müdafiə Nazirliyinin xüsusi təyinatlıları ilə birgə hücuma başladıq. Şiddətli döyüş gedirdi. Düşmənin atdığı kor güllə Mirsəfanın zirehli gödəkcəsinin mühafizə etmədiyi sol qolunun altından dəymişdi. O, elə qucağımdaca gözlərini yumaraq şəhidlik zirvəsinə yüksəldi".

Vətən müharibəsi zamanı Mirsəfa ilə eyni qrupun tərkibində vuruşmuş "N" saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi əməliyyat qrupunun yarımqrup komandiri baş çavuş Samir Qalamov (2020-ci il oktyabrın 29-da Xocavənd rayonunun Qırmızı Bazar yaşayış məntəqəsi istiqamətində yaralanıb), atəş təminatı qrupunun pulemyotçusu baş çavuş Paşa İmanov, xüsusi əməliyyat qrupunun atıcıları: çavuş Nəzarət Musayev və çavuş Etibar Hacıbabalının fəxrlə söylədiklərindən də məlum olur ki, igid silahdaşımız döyüşlərdə düşmənin xeyli sayda canlı qüvvəsini məhv etməklə əsl qəhrəmanlıq nümunələri göstərib.

Çavuş M.Mirəşrəfbəyli 2020-ci il oktyabrın 11-də Cəlilabad rayonunun Badamağac kənd qəbiristanlığında dəfn olunub. Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 15 və 25 dekabr 2020-ci il tarixli, eləcə də 24 iyun 2021-ci il tarixli müvafiq sərəncamları ilə çavuş Mirəşrəfbəyli Mirsəfa Mirbaba oğlu (ölümündən sonra) "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Allah rəhmət eləsin!

*mayor Anar Əhmədov*

# NARKOTİKƏ SON YOX DEYƏK!



Paytaxt və bölgələrdə polis əməkdaşları gəncləri zərərli vərdişlərdən, xüsusilə narkomaniyadan qorumaq məqsədilə maarifləndirmə tədbirlərini davam etdirirlər.

UNEC-də Rəqəmsal iqtisadiyyat, Mühəndislik fakültələrinin və UNEC Dizayn məktəbinin birgə təşkilatçılığı ilə "İnsan alverinə və narkomaniyaya qarşı mübarizə" mövzusunda maarifləndirici tədbir keçirilib.

Tədbirdə iştirak edən Yasamal RPİ-nin Yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili bölməsinin rəisi, polis polkovnik-leytenantı Nəbi Nəcəfov narkotik maddələrdən istifadənin törətdiyi fəsadlar barədə məlumat verib. O, dövlətlərin narkomanlığa və narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə üsullarını daha da təkmilləşdirdiyini, beynəlxalq səviyyədə müvafiq nəzarət sisteminin tətbiqi sahəsində səylərini artırdıqlarını bildirib. Problemlə mübarizədə hər bir vətəndaşın üzərinə böyük məsuliyyət düşdüyünü diqqətə çatdıran bölmə rəisi, ictimai qınaq mexanizminin daim işlək vəziyyətdə olmasının vacibliyini də vurğulayıb.



Zərdab Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə rayonun Çallı kənd tam orta məktəbində keçirilən "Narkomaniyaya yox deyək!" maarifləndirmə tədbirində çıxış edən RPŞ-nin rəis müavini, polis polkovnik-leytenantı İkram Əhmədov narkomaniyanın ictimai təhlükəlilik dərəcəsinin artdığını, bu bəlanın yoluxucu xəstəliklərə aparan ən yaxın yol olduğunu deyib, narkotik vasitələrin və onların prekursorlarından istifadənin insanlara vurduğu maddi və mənəvi zərərlərdən danışıb.

Daha bir maarifləndirici görüş Masallı Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə Boradigah qəsəbə 2 nömrəli tam orta məktəbdə baş tutub. Görüşdə çıxış edən RPŞ-nin rəisi, polis polkovniki Azay Ağayev ölkəmizdə narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin aşkar edilməsi istiqamətində aparılan genişmiqyaslı və qətiyyətli mübarizə tədbirlərindən danışıb. O, narkotik qəbul etmək təklifinə aldanan gənclərin çox vaxt bu vasitələrin təhlükəliliyi haqqında məlumatlı olmamalarını bildirib, mübarizənin daha faydalı olması üçün gənc və yeniyetmələrin antinarkomaniya ruhunda tərbiyə olunmasında valideynlərin, müəllimlərin, eləcə də ziyalıların yaxından iştirak etməsinin vacibliyini vurğulayıb.

Tədbirlərdə narkotiklərin törətdiyi fəsadlarla bağlı videoçarxlar nümayiş etdirilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# 50-dən başlayır ömrün payızı...




Onun haqqında yazacaqlarımız bir neçə günlük və ya bir neçə saatlıq müşahidənin, düşüncənin məhsulu deyil. Sınaqlardan "üzü ağ" çıxmış uzaq illərin yaxın tanışıyıq. Yəqin ki, DİN-in mətbəəsinə yolu düşən, oradan işi keçənlər də çap sahəsində əsas dəzgahın yanında dindirəndə dinən, dindirməsən bütün fikrini-zikrini səs-küylü aparata cəmləyib işini görən saçlarına xəfifcə qar ələnmiş Dimanı görməmiş olmaz.



Axı, əsgər silahından ayrı qalmadığı kimi, o da bir qayda olaraq çap dəzgahının yanından çox uzaqlaşmır. Dost-tanışın Diması, başqaları üçün isə Dünyamutdin Mərdanov ömrünün nə az, nə çox - 13 ilini beləcə mətbəə işinə həsr edib. Bu günlərdə isə zəhmətlə yoğrulmuş həyatının 50 ilini haqlayıb, ömrünün ikinci yarısına adladı... Bu yaş yarım əsri geridə qoymaqla yanaşı, həm də yenidən başlamaq, nəfəsini dərib, ömrün zirvəsinə doğru günbəgün, ilbəil addımlamaq, yüksəlmək deməkdir.



DİN-in Maddi-Texniki Təminat Baş İdarəsinə bilavasitə tabe olan Mətbəədə daxili işlər orqanları üçün dərc edilən jurnal, qəzet, buklet, blank, ümumiyyətlə rəngli çap məhsullarında elektron avtomatın operatoru Dünyamutdinin zəhməti, gözünün nuru var. İndi əlinizdə tutduğunuz bu qəzetimizin hər səhifəsinin, hər fotosunun üzərində də sizdən əvvəl onun nəzərləri gəzib, zərrəbinlə rəngləri tənzimləyib və nəhayət, həmişə yanında gördüyümüz dəzgahın çap düyməsini sıxıb. Hətta, hansısa dəzgahda xırda-para nasazlıqlar yarananda, mexanik kimi əl əməyini də qatır onun içinə. Deyir, mürəkkəb texniki avadanlıq və rənglərlə işləməyi əvvəlki işçilərdən öyrənib, indi isə özü davamçısını yetişdirir, gənc çap operatoruna bu peşəni öyrədir.

Yubilyarı kollektiv adından təbrik edən mətbəənin mühəndis-texnoloqu Zöhrab Məmmədov onun çox dəyərli işçi, etibarlı yoldaş, qayğıkeş ailə başçısı olduğunu söyləyərkən sözlərinin səmimiyyətinə heç bir şübhəmiz yox idi. Çünki bu sözlər başqası haqqında yox, Dünyamutdin haqqında deyilirdi. Dünyamutdinin həm yubiley yaşının, həm də işini layiqincə yerinə yetirməsini nəzərə alan ***Maddi-Texniki Təminat Baş İdarəsinin rəhbərliyi tərəfindən xüsusi qaydada mükafatlandırılması da mətbəənin rənglərlə işləyən işçisinə münasibətin bariz nümunəsidir.***

Yaş üstünə yaş gəldikcə insan durulaşır, sakitləşir deyirlər. Bunu yubilyarımız da təsdiq edir, ancaq illərə təslim olmur. Simasındakı həmişəki təmkinli təbəssüm isə onun zəhmətsevər həyatında yeni səhifə açıldığını gizlətmir. Ömründən yarım əsr keçsə də, hələ yarım əsrin qabaqda olduğu inancında və arzusundayıq.

Deyir ki, 50 yaşı mənə ayna xatırladır, o da baxandan-baxana...

*Rəşad Mehtiyev*
*Fotolar: Nicat İbadov*

# Daxili İşlər Nazirliyi Salyan “ASAN Xidmət” mərkəzində vakant olan vəzifələrə xidmətə qəbulla əlaqədar MÜSABİQƏ ELAN EDİR

Daxili İşlər Nazirliyi Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinə bilavasitə tabe olan Salyan “ASAN Xidmət” mərkəzi üzrə regional qrupda vakant olan 24 (iyirmi dörd) kiçik rəis heyəti vəzifəsinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.

Müsabiqədə "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən olunmuş şərtlərə cavab verən, yaşı 20-dən 30-dək, ailəli, boyu 160 santimetrdən yuxarı olan, özü və yaxın qohumları məhkum olunmamış, Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrini bitirmiş, Salyan, Neftçala və Biləsuvar rayonlarında yaşayış yeri üzrə daimi qeydiyyatda olan qadın vətəndaşlar iştirak edə bilərlər.

Müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi və fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılacaq, ali təhsilli, xarici dillərdən birini sərbəst bilən və kompüterlə işləmək qabiliyyətinə malik namizədlərə üstünlük veriləcək.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2022-ci il noyabrın 10-dan dekabrın 10-dək iş günləri saat 10:00-dan 17:00-dək Bakı şəhəri R.Behbudov küçəsi 130 ünvanında yerləşən Daxili İşlər Nazirliyinin Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinə müraciət edərək aşağıdakı sənədləri təqdim etməlidirlər:

- ***şəxsiyyət vəsiqəsi;***
- ***təhsil haqqında sənədin əsli;***
- ***əmək kitabçası (olanlar üçün).***

Müsabiqə qaliblərinə müvafiq xüsusi rütbə veriləcək və qanunvericiliklə müəyyən olunmuş qaydada onların daxili işlər orqanları əməkdaşlarına şamil olunan bütün imtiyazlardan istifadə hüququ olacaq.

**Əlavə məlumat almaq üçün əlaqə telefonu:**
**(012) 590-64-41**

# Oğru “İSTİ İZLƏR”lə saxlanılıb




Pirallahı RPŞ-nin Cinayət-axtarışı bölməsinin əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində rayondakı evlərin birindən oğurluq edən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş Vadim Mironov saxlanılıb. Təqsirləndirilən şəxs ifadəsində bildirib ki, tanışı İsmayıl Əliyevlə əvvəlcədən razılıq əldə etdikdən sonra tamah niyyətilə vətəndaş Məhəmməd Rızalıya məxsus fərdi yaşayış evinə gizli yolla daxil olaraq oğurluq edib. O, “Samsunq” markalı 82 düyümlük plazma televizorunu, telekanalların istifadəsi üçün, eləcə də modem aparatını, mikseri, saç ütüsünü, mikrodalğalı sobanı, tosteri və 2 ədəd ət çəkən maşını talayaraq, ümumilikdə zərərçəkmiş şəxsə 2500 manat maddi ziyan vurub.

Araşdırma zamanı təqsirləndirilən şəxsin rayon ərazisində daha bir evdən oğurluq etdiyi də müəyyən olunub. Belə ki, o, cari ilin 23 oktyabrında gecə saatlarında vətəndaş Gennadiy Çerenkova məxsus mənzilə daxil olub ümumi uzunluğu 20 mentr olan, 30 mm diametrli dəmir borulari talayaraq vətəndaşa 400 manat məbləğində maddi ziyan vurub.

Dindirilmə zamanı təqsirləndirilən şəxs hər iki epizod üzrə törətdiyi əməli etiraf edib.

Faktla bağlı RPŞ-də Cinayət Məcəlləsinin müvafiq maddələrilə cinayət işi başlanılıb.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Qanunun tələblərinin icrası DİQQƏT MƏRKƏZİNDƏDİR



Daxili İşlər Nazirliyi tərəfindən “Tütün məmulatlarından istifadənin məhdudlaşdırılması haqqında” Qanunun tələblərindən irəli gələn vəzifələrin icrası diqqət mərkəzində saxlanılır.

DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsi və respublikanın şəhər, rayon polis orqanları tərəfindən aidiyyəti təşkilatlarla birgə qanunla tütün çəkilməsinə icazə verilməyən yerlərdə monitorinqlər keçirilir, fiziki və hüquqi şəxslər, fərdi sahibkarlar, eləcə də əhali arasında geniş izahat işləri aparılır.

Ümumilikdə, 2022-ci ilin ötən dövründə respublikanın şəhər, rayon polis orqanları tərəfindən keçirilmiş tədbirlər nəticəsində “Tütün məmulatlarından istifadənin məhdudlaşdırılması haqqında” Qanunla qadağan edilmiş yerlərdə tütün çəkdiklərinə, tütün məmulatları tullantılarını ətraf mühitə atdıqlarına görə 10.835, tütün məmulatlarını yektinlik yaşına çatmayanlara satdıqlarına görə 501 şəxs barəsində İnzibati Xətalar Məcəlləsinin 212.1-ci, 212.3-cü, 212.4-cü və 455.2-ci maddələrinə əsasən inzibati tənbeh tədbiri tətbiq olunub. Tətbiq edilmiş cərimələr 383.300 manat təşkil edib.

Bu istiqamətdə tədbirlər davam etdirilir.

*N.Cavadov,*
*polis mayoru*

# Şöbə rəisi Avropa çempionu oldu



Antalya şəhərində Kikboksinqin WAKO versiyası üzrə Avropa çempionatı keçirilib.

Yarışda DİN İdman Cəmiyyətinin İdman-təlim şöbəsinin rəisi, polis polkovnik-leytenantı Eduard Məmmədov "Master Class" kateqoriyasında 63 kiloqram çəki dərəcəsində 2 qızıl medal qazanıb.

Belə ki, o, "Light Contact" üzrə macarıstanlı Qabor Çeyteyevə, "Kick light" da isə İtaliyalı rəqibi olan Sqro Simone Kaloceroya qalib gələrək veteran kikbokscular arasında ikinci dəfə Avropa çempionu olub.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*





# Uşaqlarla bir gün

Bu günlərdə Xətai rayonundakı “Kaspi-Liseyi” ümumtəhsil məktəbində “Yolların ritmi” adlı maarifləndirmə tədbiri keçirilib.

Tədbirdə təşkilatçıların dəvəti ilə Bakı şəhər DYPİ-nin Hərəkətin təşkilinin təbliği və ictimai qurumlarla əlaqə bölməsinin rəisi vəzifəsini müvəqqəti icra edən, polis mayoru Araz Əsgərli, bölmənin inspektoru, polis leytenantı Pərvanə Muradova və digər əməkdaşlar iştirak ediblər.

Həmkarlarımız şagirdləri əyani vəsaitlərdən istifadə etməklə avtomobil, piyada və piyada keçidi, küçə, səki, işıqfor, nizamlayıcı və digər anlayışlar barədə ətraflı məlumatlandırıblar.

Daha sonra birincilər yol hərəkəti qaydalarına dair bilik və bacarıqlarını nümayiş etdirib, səhnəciklər göstəriblər.

Sonda balacalara hədiyyələr təqdim olunub və şərti yol polisləri elan ediliblər. Onlara valideynləri yollarda qayda pozduqları zaman xəbərdarlıq etmək kimi mühüm işlər tapşırılıb.

*R.Vəliyev*

# STATİSTİKA

## Kriminal icmal

- Noyabrın 16-dan 25-dək olan müddət ərzində ölkə ərazisində qeydə alınan 532, əvvəlki dövrlərdən bağlı qalan 78 cinayətin açılması daxili işlər orqanlarının əməkdaşları tərəfindən təmin olunub.
- Axtarışda olduğuna görə ümumilikdə 768, o cümlədən borclu şəxs qismində axtarışda olan 587 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.
- Respublikanın avtomobil yollarında ölümlə nəticələnən 22 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 23 nəfər ölüb, 6 nəfər isə xəsarət alıb.
- Narkotiklərlə əlaqəli 237, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 28 fakt müəyyən edilib.

*Natiq Cavadov*

# ÜNVANINI DƏYİŞMƏYƏN MƏKTUBLAR

“Azərbaycan Polisi ilə qürur duyuram. Peşəkarlıqları ilə biz vətəndaşların rəğbətini qazanan polislərimiz xidməti vəzifələrini yerinə yetirərkən operativlik və obyektivlik nümayiş etdirirlər. İctimai nəqliyyatda başıma gələn hadisə məni bir daha əmin etdi ki, məhz polislərimizin gərgin və fədakar xidməti sayəsində biz rahat yaşayıb, işimizlə-gücümüzlə məşğul ola bilirik. Bu günlərdə içərisində tələbə biletim, təqaüd kartım və 50 manatım olan pulqabımın oğurlandığının avtobusdan düşdükdən sonra fərqinə vardım. Polisə müraciət etdim və qısa zaman ərzində pulqabım tapılaraq mənə təhvil verildi”.

Bu fikirlər Bakı şəhər sakini Qüdrət Osmanlının DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubundandır.

Paytaxt sakini Rəna Əliyeva isə itirdiyi vəsiqəsinin tez bir zamanda tapılaraq ona təhvil verilməsində göstərdikləri köməkliyə görə Nizami Rayon Polis İdarəsinin əməkdaşlarına təşəkkürünü bildirir. Yazır ki, müraciətlərimizə həssaslıqla yanaşılması biz vətəndaşların polisə olan etimadı daha da artırır. Problemimiz olduqda çaşqınlıq içərisində nə edəcəyimizi bilmədiyimiz zaman dadımıza çatan Azərbaycan Polisinə xidməti fəaliyyətlərində uğurlar diləyirik.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10009
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 15:30
Qiyməti 40 qəpik